**1.** Bərabəryanlı üçbucaqda yan tərəfə paralel olan orta xəttin uzunluğu 4-dür. Üçbucağın perimetri 22 olarsa, oturacağının uzunluğunu tapın.

*(27 aprel 2025, DİM)*

**2.** Düzbucaqlı üçbucağın katetlərindən biri digərindən 2 sm böyük, hipotenuzdan isə 2 sm kiçikdir. Bu üçbucağın hipotenuzunu tapın.

*(13 aprel 2025, DİM)*

**3.** Oturacağı $AC$ olan bərabəryanlı $ABC$ üçbucağının $BD$ medianı çəkilmişdir. $ABC$ və $ABD$ üçbucaqlarının perimetrləri uyğun olaraq 46 və 40 olarsa, $BD$-nin uzunluğunu tapın.

*(5 may 2024, DİM)*

**4.** Üçbucağın bir daxili bucağı 44° və xarici bucaqlarından biri 138° olarsa, üçbucağın ən kiçik daxili bucağını tapın.

A) 42° B) 48° C) 38°
D) 47° E) 36°

*(17 mart 2024, DİM)*

**5.** Düzbucaqlı üçbucağın düz bucaq təpəsindən çəkilmiş median və tənbölən arasındakı bucaq 10° olarsa,bu düzbucaqlı üçbucağın kiçik iti bucağını tapın.

*(30 aprel 2023, DİM)*

**6.** Düzbucaqlı üçbucağın iti bucaqlarından biri 40° olarsa, digər iti bucağı tapın.

A) 70° B) 80° C) 45°
D) 140° E) 50°

*(16 aprel 2023, DİM)*

**7.** $x-\alpha=120°, x-\beta=110°, x-\gamma=100°$ olarsa, $x$-i tapın.




A) 120°
B) 90°
C) 130°
D) 160°
E) 165°

*(9 aprel 2023, DİM)*

**8.** ABC üçbucağında DC=BC olduğu məlumdursa, $\angle A$-nı tapın.




*(9 aprel 2023, DİM)*

**9.** Şəkildən $x$ bucağının dərəcə ölçüsünü tapın.




A) 60° B) 50°
C) 70° D) 40°
E) 80°

*(1 may 2022, DİM)*

**10.** Oturacağı $BC$ olan bərabəryanlı $ABC$ üçbucağının $B$ təpəsindən $AC$-yə endirilmiş BM hündürlüyü onu $AM = 14$, $MC = 4$ olan parçalara ayırır. Bu üçbucağın oturacağının uzunluğunu tapın.

A) 16 B) 14 C) 12 D) 10 E) 15

*(30 aprel 2022, DİM)*

**11.** Perimetri 51 olan üçbucağın tərəfləri 24, 10 olarsa, digər tərəfinin uzunluğunu tapın.

A) 12 B) 14 C) 17 D) 18 E) 13

*(24 aprel 2022, DİM)*

**12.** Verilmiş şəklə əsasən $\alpha - \beta$ fərqini tapın.

A) $10^{\circ}$ B) $20^{\circ}$
C) $120^{\circ}$ D) $30^{\circ}$
E) $60^{\circ}$




*(23 aprel 2022, DİM)*

**13.** $AB = 8$, $BC = 6$, $CD = 4$, $DE = 5$ olarsa, verilmiş fiqurun perimetrini hesablayın.

A) 36
B) 32
C) 25
D) 29
E) 23




*(23 aprel 2022, DİM)*

**14.** Tərəfləri 13,4 sm və 4,9 sm olan üçbucağın üçüncü tərəfinin ən kiçik tam qiyməti neçə ola bilər?

*(23 aprel 2022, DİM)*

**15.** Üçbucağın tərəfləri 10sm, 12 sm və 14 sm olarsa, bu üçbucağın orta xətlərindən əmələ gələn üçbucağın perimetrini tapın.

A) 18 B) 9 C) 36 D) 27 E) 20

*(16 aprel 2022, DİM)*

Düzgün cavablar

1 (6) 2 (10) 3 (17) 4A 5 (35) 6E

7E 8 (40) 9C 10C 11C 12B 13B

14 (9) 15A